UOT 37.

***Tofiq Əliağa oğlu İsgəndərov***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialının baş müəllimi*

# TƏHSİLİN İNKİŞAFI VƏ TƏHSİLDƏ SİNERGETİK YANAŞMALAR

***Тофик Алиага оглу Исгендеров***
*старший преподаватель*
*Джалилабадскго филиала Азербайджанского Государственного Педагогического Университета*

# РАЗВИТИЕ ОБРАЗОВАНИЯ И СИНЕРГЕТИЧЕСКИЕ ПОДХОДЫ В ОБРАЗОВАНИИ

***Tofiq Eliaga Isgenderov***
*senior teacher*
*of the Jalilabad branch of the Azerbaijan State Pedaqogical Unicversity*

# DEVELOPMENT OF EDUCATION AND SYNERGETIC APPROACHES IN EDUCATION

**Xülasə:** Məqalə təhsilin müasir inkişafı və təhsildə sinergetik yanaşmalara həsr olunmuşdur. Yazıda sinergetik konsepsiyası, bu məsələyə pedaqoqların münasibəti və təhsildə sinergetik yanaşma məsələləri araşdırılmışdır.

***Açar sözlər**: sinergetik yanaşma, özünütəşkil, sinergetik prinsiplər, təhsildə adaptasiya, özünütərbiyə, özünütəhsil.*

**Резюме:** Статья посвящена современному развитию образования и синергетическим подходам в образовании. Разработана концепция синергетики, подходы педагогов к этому вопросу, синергетические подходы в образовании

***Ключевые слова**: синергетический подход, самоорганизация, синергетические принципы, адаптация в образовании, самодисциплина, самообразование*

**Summary:** The article was dedicated to the contemporary development of education and synergetic approaches in education. The concept of synergetics, the pedagogues' approaches to the matter, of synergetic approaches in education wereexplaned.

***Key words**: synergetic approach, self-organized, synergetic principle, adaptation in education, self-education, self-discipline*

Sinergetika sözü qədim yunancadan götürülmüş uyğunluq və fəaliyyət sözlərinin birləşməsindən əmələ gəlib. Tədqiqat və elmi araşdırmaların kəsişdiyi sahə nəzərdə tutulur. Sinergetika mütləq özünütəşkil əsasında təbiətin və ətraf mühitin strukturlarının meydana gəlməsi, dayanıqlığı və məhvolma proseslərini öyrənir. Tarixən sinergetika bizi əhatə edən aləmdə baş verən fiziki və bioloji-sosial proseslərin tədqiq edilməsi ilə məşğul olur. Çünki sinergetika prinsiplərinə görə-maddi aləmdəki entropiyanın artımı, onun bioloji və sosial sistemlərdə azalması ilə müşayiət (kompensasiya) olunur. Bu həm də təbiətin dialektik inkişafı və təkamülü qanunlarına uyğun olaraq biosistemlərin daha optimal təşkilinə istiqamətlənmişdir.

Pedaqogikada sinergetik yanaşma məsələlərinə dair çoxlu tədqiqatlar aparılmasına baxmayaraq, "pedaqoji sinergetika" və "sinergetik yanaşma" anlayışları hələ birmənalı qarşılanmır. Bununla belə "sinergetik prinsiplər"in pedaqoji nəzəriyyə və təcrübədə tətbiqi məsələsi daha çox aktuallıq tələb kəsb edir. Pedaqoji nəzəriyyənin ayrı-ayrı məsələləri bir çox tədqiqatçılar tərəfindən öyrənilir. Rus tədqiqatçıları bu məsələyə belə münasibət bildirmişlər. A.A. Vorojbitova pedaqoji sinergetikaya şagird şəxsiyyətində materiallaşan tərbiyə və özünütərbiyə, təhsil və

özünütəhsil, təlim və özünütəlim və s. adlı çoxamilli qarşılıqlı fəaliyyətin sintezi kimi yanaşır.

V.İ. Andreyev "pedaqoji sinergetika"nı sinergetikanın qanun və qanunauyğunluqlarına əsaslanan pedaqoji biliklər sahəsi adlandırmağı təklif edir. Onun fikrincə, sinergetik yanaşma, özünütəşkil və özünüinkişafın pedaqoji təlim-tərbiyə sistemidir. Belə hesab edir ki, pedaqoji sinergetika pedaqoji sistemin inkişaf problemlərinin araşdırılmasına və yeni yanaşmaya imkan yaradır.

V.A. İqnatova isə təhsildə "sinergetik yanaşma" ideyasının üç mühüm tərkib hissəsini göstərir:

1) Təhsilin məzmununda sinergetik ideyaların adaptasiyasının (uyğunlaşma) didaktik cəhətləri;

2) Onların təhsil sisteminin inkişafının modernləşdirilməsi və proqnozlaşdırılmasında istifadəsi;

3) Təlim-tərbiyə prosesinin idarə olunmasında onlardan istifadə.

Beləliklə, pedaqogika üçün sinergetika metodoloji prinsiplərdən biri kimi çıxış edir. Çünki pedaqoji prosesin məqsədyönlü qarşılıqlı əlaqəsi çərçivəsində biliklərin yeni sahəsinin öyrənilməsində artıq keyfiyyət göstəriciləri müşahidə olunur. Yaşadığımız dövrdə ümumtəhsil məktəbləri və ali təhsil müəssisələrində təhsilin yeniliklərə və innovasiyalara açıq olması, fəaliyyətin hər gün dəyişən və yenilənən texnologiyalar vasitəsi ilə təşkili yolunu tutması, daim müasirliyi və qloballığı ilə səciyyələnən tələblərə cavab verə bilməsi, dayanıqlığı rəqabətə davamlı olması, insan kapitalının yetişdirilməsi ilə seçilir. Bu gün Azərbaycan təhsili tədris və öyrənmə prosesinin məzmununu, həm də bu prosesə tətbiq olunan texnoloji avadanlıqları təkmilləşdirərək inkişaf edir.

Sözsüz ki, cəmiyyətimizin ümumi dinamik inkişafının təmin edilməsi üçün elm, təhsil, təlim-tədris proseslərinin qarşılıqlı əlaqə və vəhdəti, müasir texnologiyaların tətbiqinə əsaslanan çoxşaxəli fəaliyyət sahələrinin bir-biri ilə əlaqələndirilməsi, təhsilin sənaye və bizneslə möhkəm əlaqələrinin qurulması və s. keyfiyyətli, sürətli, elmi-texniki tərəqqini təmin edir. Müasir informasiya cəmiyyətində innovativ inkişafın təmin edilməsi, eyni zamanda onun rəqabətə davamlı və dayanıqlı olması, həmçinin dinamik inkişafı üçün əsas şərtdir. Beləliklə, təhsil və tədris prosesində ənənə və yeniliyin mübarizəsi, bir-biri ilə qarşılıqlı əlaqə və vəhdəti, eyni zamanda sinergetik inkişafı məsələləri özünü göstərir.

Müasir təhsil bütün detalları ilə innovativ təhsildir. Tətbiq olunan interaktiv təlim üsulları, müəllimin bələdçilik fəaliyyəti, müəllim-şagird münasibətlərində yeni yanaşmalar, konseptuallığı ilə səciyyələnən kurikulum islahatı, təhsil və tədris prosesinə yeni elmi-texniki avadanlıqların tətbiqi, qiymətləndirmə islahatı və bu sahədəki yeniliklər, təhsil alanların və təhsil verənlərin məzmunca dəyişməsi, İKT-dən istifadənin daha geniş vüsət alması və s. bütövlükdə təhsilin innovasiyalaşdırılmasına xidmət edir. Odur ki, innovativ təhsil tədris prosesində yeni texnikaların yaradılması, inkişafı və yayılmasına istiqamətlənmiş proses kimi xarakterizə olunur. Bu prosesdə ənənəvi təhsil İnformasiya Kommunikasiya Texnologiyaları ilə ən yüksək səviyyədə təchiz olunmuş innovativ təhsillə nəticələnir. Yəni innovativ təhsil ənənəvi təhsilin informasiya cəmiyyətinin tələbləri səviyyəsinə yüksəldilməsi, həm də məqsədyönlü istiqamətlənməsi, onun informasiya cəmiyyəti texnologiyaları ilə reallaşması deməkdir. Get-gedə daha artıq dərəcədə təhsil alanların və təhsil verənlərin təhsil prosesində rolu və vəzifələri məzmunca dəyişir. Eyni zamanda təhsil vasitəsi ilə cəmiyyətin texnoloji, sosial-iqtisadi tələblərinin reallaşması müşahidə olunur. Məsələn, müəllim artıq bələdçi (fasilitator) funksiyasından fərqli, elmi məsləhətçi (tyutor) funksiyası daşıyır.

İnformasiya Kommunikasiya Texnologiyalarının hər gün artan tələbata uyğun olaraq, cəmiyyət həyatının bütün fəaliyyət sahələrinə nüfuz etməsi, informasiya avadanlıqları sənayesi, bunların nəticəsində isə biliklərin intensiv inkişafı İnformasiya Cəmiyyətini formalaşdırır. İnformasiya Cəmiyyəti yeni tipli informasiya texnologiyalarının yüksək sürətlə inkişafı nəticəsində formalaşan yeni tipli cəmiyyətdir ki, buna bəzən "biliklər cəmiyyəti" də deyilir.

Müasir təhsilin qarşısında duran əsas vəzifələr zamanın tələbatına cavab verə biləcək iqtisadiyyatın inkişafını stimullaşdırmaq, cəmiyyətin və əmək bazarının sürətlə dəyişən ehtiyaclarına uyğun mütəxəssis hazırlığını təmin etməkdir. Qloballaşma dövründə sənayeləşmə inkişaf etdiyi kimi, təhsil sistemi də buna uyğun olaraq

inkişaf etmişdir. Çünki müasir texnologiyaların tətbiqi təhsilalanların və təhsilverənlərin inkişafını tələb etmiş və potensiallığını artırmışdır.

Bununla belə əldə olunan nəzəri biliklər və təcrübə, elmi-pedaqoji baza İnformasiya Cəmiyyəti üçün kifayətedici səviyyədə deyildir. Odur ki, təhsil sistemində mövcud problemlərə və onların təzahürlərinə, tarixən qazanılmış pedaqoji təcrübəyə yeni tarixi şəraitə uyğun yanaşma olmalıdır. Bu günün təhsili sabahın tələblərinə yetərincə cavab verə bilmək iqtidarında olmalıdır. Başqa sözlə, təhsilin dinamik inkişafı təmin edilməlidir ki, yeni cəmiyyətin daim yenilənən tələblərinə cavab verə bilsin.

**Problemin aktuallığı:** Təhsilin inkişafında sinergetik yanaşmaların mahiyyətini əks etdirir.

**Problemin elmi yeniliyi və praktik əhəmiyyəti:** Qloballaşma dövründə sənayenin və təhsilin qanunauyğun qarşılıqlı əlaqəsi özünütəşkil və dinamik inkişafı təmin edir. Bu baxımdan da mövzu mühüm əhəmiyyət kəsb edir.

**Ədəbiyyat:**


1. Андреев, В.И.Педагогика творческого саморазвития. В.И. Андреев. – Казанъ: из-во Казанского кн-та, 1996.
2. Ворожбитова, А.А. Синергетический аспект вузовского образования в свете лингвориторического подхода / А.А Ворожбитов // Вестник высшей школы. 1999, N: 2
3. Игнатова, В.Д. Педагогические аспекты синергетики / В.А.Игнатова // Педагогика. 2001, N:8
4. “Azərbaycan müəllimi” qəz., № 46, 2017, 1 dekabr


E-mail: isgenderov-tofiq@mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok.* T.S. Paşayev,
*filol.ü.fəls.dok.* A.A. Əhmədov
**Redaksiyaya daxil olub: 05.06.2018**